● Fikrət Əmirov - 100

# Yubiley tədbirlərinə start verildi



**Görkəmli bəstəkar, tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Fikrət Əmirovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Prezident İlham Əliyevin müvafiq sərəncamının icrasına başlanılıb. Bu məqsədlə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi "Fikrət Əmirov - 100" Musiqi Festivalına start verib.**

Bakı və Gəncə şəhərlərində noyabrın 12-23-də silsilə konsertlərin, tamaşaların və müvafiq tədbirlərin keçirilməsi nəzərdə tutulub. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında noyabrın 12-də bəstəkarın "Nizami" baleti təqdim olunub. Noyabrın 13-də teatrın kollektivi F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında bəstəkarın "Sevil" operasını nümayiş etdirəcək. Noyabrın 18-də isə həmin məkanda Azərbaycan Dövlət Simfonik Orkestrinin konsert proqramı ilə çıxışı planlaşdırılıb.

Noyabrın 15-i Azərbaycan Dövlət Akademik Filarmoniyasında Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri, noyabrın 17-də F.Əmirov adına Əməkdar Kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı konsert proqramı ilə çıxışı nəzərdə tutulub. Noyabrın 21-də Beynəlxalq Muğam Mərkəzində vokal musiqisi axşamı təşkil olunacaq.

Heydər Əliyev Sarayında bəstəkarın 100 illik yubileyinə həsr olunmuş təntənəli yubiley gecəsi noyabrın 22-də keçiriləcək. Növbəti tədbir isə noyabrın 23-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında təşkil olunacaq. Teatrda bəstəkarın "1001 gecə" baleti təqdim ediləcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 13 noyabr.- S.9.